# Bərdədə "Fənn kurikulumlarının tətbiqi" mövzusunda praktik seminar keçirilib





Martın 12-də Bərdə şəhər akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseydə Bərdə Rayon Təhsil Şöbəsinin təşkilatçılığı ilə "Fənn kurikulumlarının tətbiqi" mövzusunda praktik seminar keçirilib. Seminarda Bərdə rayon təhsil işçiləri ilə yanaşı Ağdam, Ağcabədi, Tərtər, Yevlax rayonlarının təhsil şöbələrinin nümayəndələri, metodik kabinet müdirləri, məktəb direktorları, müəllimlər, KİV nümayəndələri və digər şəxslər iştirak ediblər. Öncə iştirakçılar görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın məktəb-liseyin qarşısındakı büstü önünə gül dəstələri qoyublar. Sonra məktəb-liseyin foyesində şagirdlərin əl işlərindən ibarət sərgiyə baxış keçirilib.

Tədbirdə iştirakçılar fənn kurikulumlarının tətbiqi ilə bağlı təşkil olunan 18 nümunəvi "açıq dərs"də iştirak ediblər. Akademik Zərifə Əliyeva adına məktəb-liseyin müəllimləri Flora Əliyeva, Qönçə Abdullayevanın, şəhər 8 nömrəli məktəbin müəllimləri Nərgiz Həsənova, Vəsilə Hüseynova, İfadə Həmidova, Sədiqə Ağamalıyevanın, şəhər 3 nömrəli məktəbin müəllimləri Xəyalə Dadaşova, Gülər Quliyeva, şəhər 4 nömrəli məktəbin müəllimi Tofiqə Məmmədova, şəhər 1 nömrəli məktəbin müəllimləri Gülnarə Əliyeva, Zülfiyyə Süleymanova, Mirzalıbəyli kənd tam orta məktəbinin müəllimi Fatma Fərzəliyeva və digərlərinin nümunəvi dərsləri iştirakçılarda böyük maraq yaradıb.

Dərslər dinlənildikdən sonra məktəb-liseyin akt zalında praktik seminar öz işini davam etdirib. Seminarı giriş sözü ilə açan Bərdə Rayon Təhsil Şöbəsinin müdiri Rzaqulu Şərifov tədbir iştirakçılarını salamlayaraq geniş məruzə edib. R.Şərifov bildirib ki, ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi və sosial-iqtisadi kurs öz bəhrələrini verməkdədir. Son illər Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsilin inkişafı istiqamətində çoxsaylı uğurlara imza atılmışdır. Ölkə Prezidenti İlham Əliyevin diqqəti, qayğısı və yaxından dəstəyi ilə bütövlükdə Azərbaycanda, o cümlədən təhsil sistemində çox ciddi işlər həyata keçirilmişdir. Bu işlərin tərkib hissələrindən biri də kurikulum islahatıdır. Hamımıza məlumdur ki, artıq 8 ildir ki, respublikamızın ümumtəhsil məktəblərində fənn kurikulumları tətbiq edilir. Bu illər Bərdə təhsilində kurikulum islahatının həyata keçirilməsi ilə bağlı mühüm işlər görülüb. Belə ki, Azərbaycan Respublikası Təhsil Nazirliyinin "Kurikulum islahatı" alt komponenti üzrə icra planında nəzərdə tutulmuş tədbirlər yerinə yetirilmişdir, müəllimlərin mütəmadi olaraq fənn kurikulumları, ixtisasartırma, "Öyrədənlərin öyrədəni", "Fənlər üzrə Elektron Təhsil Resursları" və s. kimi kurs və treninqlərə iştirakları təmin edilmişdir. Rayon təhsil şöbəsi ən yaxşı müəllimlərin aşkar edilib onların təcrübəsinin öyrənilib yayılmasını, müəllimlərin bilik və bacarıqlarının daim artırılmasını diqqət mərkəzində saxlamışdır. Rayonda 4 kurikulum mərkəzi, 14 dayaq məntəqəsi fəaliyyət göstərir ki, burada tez-tez "açıq dərs"lər, "dəyirmi masa"lar, seminarlar keçirilir. Dərs ili ərzində məktəblərdə ayrı-ayrı fənlərdən 490 saat dərs dinlənilmiş, rayon üzrə 180-dən çox "açıq dərs" keçirilmişdir. Müəllimlərdən Nərgiz Həsənova, Rüxsarə Mirzəyeva və Ülviyyə Eminovanın qabaqcıl iş təcrübəsi respublikada yayılmışdır.

Qeyd olunub ki, görülən işlərin nəticəsində rayonun təhsil uğurları ilbəil artmaqdadır. Belə ki, 2014-cü ildə 62 nəfər, 2015-ci ildə 80 nəfər ali məktəblərə qəbul imtahanında 500-dən çox bal toplamışdır. Rayonun tarixində ilk dəfə ali məktəblərə qəbul imtahanında akademik Zərifə Əliyeva adına texniki fənlər təmayüllü məktəb-liseyin məzunu Arzu Həsənli 700 bal toplamışdır. Təkcə Zərifə Əliyeva adına məktəb-liseyin 2015-ci il məzunlarından 13 nəfəri 600-dən çox bal toplamışdır. Məktəblərdə tədrisin keyfiyyətini müəyyən edən amillərdən biri də şagirdlər arasında fənn olimpiadalarının nəticələridir. Bu sahədə də uğurlu nəticələrimiz vardır. Belə ki, rayonun şəhər 5 nömrəli tam orta məktəbin X sinif şagirdi Cavadov Fəhmin Hidayət oğlu Respublika olimpiadasında biologiya fənnindən II yeri tutaraq gümüş, Xanqaraqoyunlu kənd tam orta məktəbinin XI sinif şagirdi tarix fənnindən III yeri tutaraq bürünc medala layiq görülmüşlər.

Tədbirdə çıxış edən Bərdə rayon Muğanlı kənd tam orta məktəbinin direktoru, əməkdar müəllim Zülfiqar Əsədov, "Təhsil Problemləri" qəzetinin baş redaktoru Malik Rəcəb və digər təhsil işçiləri seminarın əhəmiyyətindən söz açıblar. Tədbirin yüksək səviyyədə təşkil olunduğunu diqqətə çatdırıblar.

Sonra seminarda dinlənilmiş dərslərin müzakirəsi aparılıb. Nümunəvi dərslərin müasir tələblərə cavab verdiyini bildirən mütəxəssislər rayonda metodiki işin təşkilini yüksək qiymətləndiriblər. Fənn kurikulumlarının tətbiqi ilə bağlı rəy və təkliflər irəli sürüblər.

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*